

Yaşlı insanların COVID-19 xəstəliyini ağır formada keçirmək riski yüksəkdir. Belə ki, yaşlılar COVID-19-a yoluxduqda xəstəxanaya yerləşdirilə və süni tənəffüs aparatına qoşula bilər.

Bununla yanaşı, yaşlılarda müxtəlif xroniki xəstəliklərin olması xəstəliyin ağır formada keçməsi riskini daha da artırır.

Yaşlı şəxslərə və xroniki xəstəliyi olanlara COVID-19 peyvəndinin 2 dozasını, eləcə də buster dozanı vurdurmaq tövsiyə olunur.

# #PeyvəndOlunaq

**COVID-19 ƏLEYHİNƏ PEYVƏND OLUNDUQDAN SONRA DA ÖZÜNÜ QORUMAQ VƏ XƏSTƏLİYƏ QALİB GƏLMƏK ÜÇÜN BUNLARIN #HAMISINIET!**

- **Maska taxmaq**
- **Məsafə saxlamaq** (1 m)
- **Ağzı və burnu dirsək büküyü ilə örtmək**
- **Qapalı məkanları tez-tez havalandırmaq**
- **Əlləri tez-tez yumaq və ya dezinfeksiya etmək**

who.azerbaijan who_azerbaijan WHOAzerbaijan

Vərəqə Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Buradakı məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə tam məsuliyyəti ÜST-nin Ölkə Ofisi daşıyır.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
World Health Organization Azerbaijan



# Mən peyvənd olunmağı seçirəm!

COVID-19 peyvəndi haqqında məlumat kitabçası

## Peyvənd nədir?

**Peyvəndlər hər il milyonlarla insanın həyatını xilas edir!**

Peyvəndlərin ixtirasından öncə dünya insanlar üçün daha təhlükəli idi. Hər il milyonlarla insan, xüsusilə uşaqlar çiçək, poliomielit, difteriya, qızılca və başqa qarşısı peyvəndlərlə alına bilən xəstəliklərdən vəfat edirdi. Məsələn, çiçək xəstəliyi XX əsrdə dünya miqyasında 300 milyondan artıq insanın ölümünə səbəb olub. Müasir dövrdə kütləvi peyvəndləmə sayəsində çiçək xəstəliyi yoxa çıxmış, digər xəstəliklərdən ölüm halları isə əhəmiyyətli dərəcədə azalmışdır.

Kütləvi peyvəndləmə peyvəndlərlə qarşısı alınan digər xəstəliklərdə olduğu kimi, COVID-19 pandemiyasına da qalib gəlmək üçün ən etibarlı vasitədir!

## Peyvənd necə təsir göstərir?

Peyvəndlər bədənimizin təbii müdafiə (immun) sistemini virus və bakteriyaları tanımaq və onlarla mübarizə aparmaq üçün hazırlayır. Onlar immun sisteminə xəstəlik zamanı olduğu kimi anticisim yaratmağı öyrədir. Peyvənd olunduqdan sonra biz virus və bakteriyalarla təmasda olduqda immun sistemimiz onları vaxtında tanıyıb məhv edərək xəstəliyin qarşısını alır.

**Təsdiqlənmiş COVID-19 peyvəndlərinin heç birinin tərkibində canlı virus yoxdur! Bu vaksinlər COVID-19 xəstəliyinə səbəb ola bilməz!**

## COVID-19 peyvəndləri effektivdirmi?

Peyvəndlər COVID-19-a qarşı effektivdir. COVID-19 peyvəndləri xəstəliyə yoluxma riskini azaldır, lakin 100 % qorumanı təmin etmir. Bu o deməkdir ki, biz peyvənd vurdurduqdan sonra da xəstəliyə yoluxa və digərlərini yoluxdura bilərik. Lakin virusa yoluxsaq belə, böyük ehtimalla xəstəliyi yüngül və ya simptomsuz keçirəcəyik.
Unutmamalıyıq ki, COVID-19 peyvəndləri xəstəliyin ağırlaşmasının və ölüm hallarının qarşısını əhəmiyyətli dərəcədə alır.

## COVID-19 peyvəndləri təhlükəsizdirmi?

Artıq milyonlarla insan COVID-19-a qarşı peyvənd olunub. Bütün təsdiqlənmiş COVID-19 peyvəndləri on minlərlə insanın iştirak etdiyi çoxmərhələli kliniki sınaqlardan keçirilir və davamlı olaraq monitorinq olunur. COVID-19 peyvəndləri digər peyvəndlər kimi istifadə üçün təsdiq olunmazdan öncə eyni sınaq mərhələlərindən keçib. Pandemiyalar zamanı peyvəndlərin istifadəyə erkən verilməsi üçün bir neçə sınaq mərhələsi eyni zamanda aparılır və nəticələr daha sürətlə əldə olunur.

**COVID-19 peyvəndləri təhlükəsizdir! Onlar həyat xilas edir!**

## Buster (gücləndirici) doza nədir?

İlk iki peyvənd dozasının yaratdığı immun reaksiyası (qorunma səviyyəsi) altıncı ayın sonunda zəifləyir. Buster dozanın vurdurulması bədənin xəstəliyə qarşı müqavimətini yenidən bərpa etməsinə kömək edir. Bu isə virusun sürətlə yayılmasının və müxtəlif ştamların yaranmasının qarşısını alır ki, nəticədə də biz özümüzü, ailəmizi və sevdiklərimizi xəstəliyə yoluxmaqdan qoruyuruq.

**Yaşlı və xroniki xəstəliyi olan şəxslərin buster dozanı vurdurması xüsusilə vacildir!**

## COVID-19 xəstəliyi üzrə risk qrupuna kimlər daxildir?

**COVID-19 xəstəliyi üzrə risk qrupuna daxildir:**

- **yaşlılar;**
- **yanaşı xəstəliyi olan şəxslər (şəkərli diabet, ürək-damar xəstəlikləri, hipertoniya, astma, ağciyər, qaraciyər və böyrək xəstəlikləri);**
- **tibb işçiləri;**
- **hamilə qadınlar.**

**Risk qrupundakı insanların COVID-19-a yoluxmaq və xəstəliyi ağır keçirmək ehtimalı daha yüksəkdir. Onların ilk növbədə peyvənd olunması tövsiyə edilir.**

## Peyvəndin hansı yan təsirləri ola bilər?

Digər peyvəndlərdə olduğu kimi COVID-19 peyvəndlərinin də yan təsirləri ola bilər. Bu, normaldır və narahatlığa səbəb olmamalıdır. Yan təsirlər əksər hallarda yüngül və ya orta dərəcəli olur və bir neçə gün ərzində öz-özünə keçib, gedir. COVID-19 peyvəndindən sonra ən çox rast gələnən yan təsirlər aşağıdakılardır:




Əgər peyvənd vurdurduqdan sonra digər gözlənilməz yan təsirlər müşahidə olunarsa və ya yan təsirlər 3 gündən çox davam edərsə, ailə həkiminizlə əlaqə saxlayın. Peyvənddən sonra anaflaftik şok kimi ciddi allergik reaksiyaya çox nadir hallarda rast gəlinir.

**COVID-19 peyvəndindən sonra yan təsirlərin olması normal haldır və narahatlığa səbəb olmamalıdır!**

Kitabça Avropa İttifaqının maliyyə dəstəyi ilə çap olunub. Buradakı məlumatlar Avropa İttifaqının rəsmi mövqeyini əks etdirmir və məzmuna görə tam məsuliyyəti ÜST-nin Ölkə Ofisi daşıyır.